ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

Kapital Bank

RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

# Coğrafiya 11

Ad________________ Soyad________________

* İmtahan müddəti 180 dəqiqədir.
* Hər səhv cavab öz dəyərinin ¼ - ni aparır.
* Hər sual 4 bal ilə qiymətləndirilir.
* Nəzarətçilərə cavab kartları və buraxılış vərəqələri təqdim olunur.
* Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn,bölmə,sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
* Rayon (şəhər) mərhələsinin nəticələrini 05.01.2023-cü il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!
25.12.2022

O.D. 25.12.2022

Coğrafiya 11-ci sinif Doğru cavablar:
1E 2A 3B 4E 5D 6C 7D 8A 9E 10C
11B 12B 13D 14C 15E 16D 17E 18A 19B 20E
21D 22C 23C 24B 25D

**1. Verilən fikirlərdən hansılar Afrika materiki üçün səciyyəvi olub, həm Şimali, həm də Cənubi Amerika materikləri üçün səciyyəvi *deyil:***

1. Savanna və seyrək meşələr təbii zonasına rast gəlinir.
2. İqlim qurşaqları təkrar olunur.
3. Çöl təbii zonasına rast gəlinir.
4. Sahilini daxili dəniz suları yuyur.
5. Bir tropik və iki mülayim işıqlanma qurşağında yerləşir.

A) 3, 5 B) 1, 2 C) 3, 4
D) 2, 5 E) 4, 5

**2. Düzgün fikirləri müəyyən edin.**

1. Dəniz və ya okean səviyyəsində yerləşən hər hansı bir məntəqədə atmosfer təzyiqi 760 mm c.s.-dan çox ola bilməz.
2. Ölkəmizin fiziki səthinin sahəsi 86600 $km^2$ -dən daha çoxdur.
3. 5 dekabr tarixində Şimal qütb işıqlanma qurşağında gündüz müşahidə edilə bilməz.
4. 40°-lik cənub enliyində yerləşən şimal istiqamətinə meyilli dağ yamacında günəş şüaları 90° bucaq altında düşə bilər.
5. Azərbaycanda iyul-avqust aylarında antisiklonlar hakim olur.
6. Şimali Amerika materikinin cənub ucqar nöqtəsi, Cənubi Amerika materikinin şimal ucqar nöqtəsindən daha şimalda yerləşir.

A) 2, 4, 5 B) 3, 4, 6 C) 1, 2, 5
D) 1, 3, 5 E) 2, 4, 6

**3. Eyni meridian üzərində, lakin, müxtəlif yarımkürələrdə yerləşən A və B məntəqələrində il ərzində günəş şüalarının günorta vaxtı minimum düşmə bucağı 62°-dir. Bu məntəqələr arasındakı ən qısa məsafənin, şimal və cənub tropik xətləri arasında qalan ən qısa məsafənin 9,4 sm göstərildiyi xəritədə neçə santimetr olduğunu müəyyən edin.**

A) 2,8 sm B) 1,8 sm C) 3,7 sm
D) 2,6 sm E) 1,2 sm

**4. Düzgün *olmayan* sıraları müəyyən edin.**

1. Qara metallar — dəmir, xrom, kobalt, manqan
2. Əlvan metallar — mis, sink, titan, nikel
3. Kimya xammalı — apatit, fosforit, kükürd, seolit gili
4. Tikinti materialları — əhəngdaşı, mərmər, travertin, perlit
5. Qiymətli daşlar — yaqut, zümrüd, almaz, qızıl
6. Yanar faydalı qazıntılar — daş kömür, torf, yanar şist, fosforit

A) 2, 3, 5 B) 1, 4, 6 C) 1, 3, 5
D) 4, 5, 6 E) 1, 5, 6

O.D. 25.12.2022

**5. Doğru fikirləri müəyyən edin.**

1. Afrika, Şimali Amerika və Cənubi Amerika litosfer tavaları həm okean, həm də materik mənşəlidir.
2. Şimali Amerika və Hind-Avstraliya litosfer tavaları eyni istiqamətdə hərəkət edirlər.
3. Kiçik Qafqaz tektonik qalxma zonasında Mezozoy erasının bütün dövrlərinə aid olan çöküntülərə rast gəlinir.
4. Trias, Yura, Təbaşir dövrlərinin hakim olduğu müddət, Paleogen, Neogen və Antropogen dövrlərinin hakim olduğu müddətdən daha azdır.
5. Afrika litosfer tavası Naska litosfer tavasından daha sürətlidir.
6. Malakka yarımadası orta qırışıqlıqda yaranmışdır.

A) 1, 2, 5 B) 1, 2, 6 C) 3, 4, 5
D) 1, 3, 6 E) 2, 3, 6

**6. Müvafiq ardıcıllığın gözlənildiyi bəndi müəyyən edin.**

| № | Faydalı qazıntının şərti işarəsi | Faydalı qazıntı yatağının adı | Faydalı qazıntı yataqlarının yerləşdiyi fiziki-coğrafi rayon |
|---|---|---|---|
| 1 |  | Levçay | Həkəri |
| 2 |  | Toğanalı | Qarabağ |
| 3 |  | Mehmana | Gəncə |
| 4 |  | Çıraqdərə | Gəncə |
| 5 |  | Zəylik | Qazax-Qarabağ |

A) 1 B) 3 C) 4 D) 5 E) 2

O.D. 25.12.2022

**7. Şimali Afrikada rütubətli iqlim şəraitində, Qrenlandiyada isə buzların altında isti iqlim şəraitində yaşamış canlı orqanizmlərə aid qalıqlar aşkar edilmişdir. Bu faktların araşdırılması ilə məşğul olan elm sahəsi hansıdır?**

A) Rekreasiya coğrafiyası
B) Biocoğrafiya
C) Tibbi coğrafiya
D) Paleontologiya
E) Landşaftşünaslıq

**8. Başlanğıcı Taman yarımadasında olan dağ sistemi:**

A) Qafqaz B) Krım C) Pont
D) Sixote-Alin E) Ural

**9. Doğru fikirləri müəyyən edin.**

1. Naxçıvanın Arazboyu düzənliklərində respublikamızın maksimal və ən yüksək orta illik temperaturları qeydə alınmışdır.
2. Azərbaycanda maksimal yağıntı Lənkəran ovalığında müşahidə olunmuşdur.
3. Ceyranbatan və Yenikənd su anbarlarının yerləşdiyi ərazidə eyni iqlim yarımtipi müşahidə edilir.
4. Böyük Qafqaz, Kiçik Qafqaz və Naxçıvanın dağlıq ərazilərində dağ-çöl landşaftlarına rast gəlinir.
5. Rvarud yasaqlığının yerləşdiyi inzibati rayonda vulkanik mənşəli süxurlara rast gəlinir.
6. Ağdərə, Şahbuz və Yardımlı şəhərləri fərqli tektonik zonalarda yerləşirlər.

A) 4, 5, 6 B) 1, 2, 3 C) 3, 4, 6
D) 1, 2, 5 E) 3, 4, 5

**10. Rəqəmlərlə göstərilən ölkələrə aid olan *doğru* fikirləri müəyyən edin.**

1. İtaliya
2. Niderland
3. Meksika
4. Hindistan
5. CAR
6. Almaniya

A) 2,4,5 – Demoqrafik keçidin III mərhələsindədirlər.
B) 4,5,6 – Əhalisinin sayı 100 milyon nəfərdən çoxdur.
C) 1,3,5 – Ərazilərində Aralıq dənizi iqlim tipinə rast gəlinir.
D) 1,2,6 – Rəsmi dövlət dilləri eyni dil qrupuna aiddir.
E) 1,2,3 – Əhalisi təbii artımın I tipinə aiddir.

**11. Şərqi Qat, Mak-Donnel və Hamersli dağlarına aid olan düzgün fikri müəyyən edin.**

A) Ərazilərindən axan çaylar iki okean hövzəsinə aiddir.
B) Baykal qırışıqlığından daha əvvəl yaranan dağlardır.
C) Kaledon qırışıqlığında yaranıblar.
D) Eyni yarımkürələrdə yerləşirlər.
E) Ölkəmizdə bu dağlarla eyni geoloji dövrlərdə əmələ gələn dağlar mövcuddur.

**12. Xəritə-sxemdə verilmiş A, B, C və D ölkələri üçün oxşar *olmayan* xüsusiyyətləri müəyyən edin.**




1. Avropa Birliyinə üzv ölkələrdir.
2. Hind-Avropa dil ailəsinə mənsubdurlar.
3. Demoqrafik keçidin IV mərhələsindədirlər.
4. Seysmik cəhətdən passiv zonada yerləşirlər.
5. Eyni dinə sitayiş edirlər.
6. Xidmət sahələrinin payı daha yüksəkdir.

A) 1, 2, 5 B) 1, 2, 4 C) 1, 4, 5
D) 2, 3, 6 E) 3, 5, 6

**13. Hansı dağ zirvələri arasında atmosfer təzyiq fərqi daha böyükdür?**

A) Qapıcıq və Qazangöldağ
B) Qızılboğaz və Böyük İşıqlı
C) Tufandağ və Bazaryurd
D) Kömürköy və Dübrar
E) Gamışdağ və Dəlidağ

O.D. 25.12.2022

**14. Düzgün fikirləri müəyyən edin.**

1. Patom yaylası, Timan tirəsi və Böyük Suayrıcı dağları eyni dağəmələgəlmə mərhələsində formalaşmışdır.
2. Qviana və İran dağlıq yaylaları eyni dağəmələgəlmə mərhələsində formalaşıb.
3. Transqresiya zamanı səth örtüyünün albedosu artar.
4. Aerozollar atmosfer çöküntülərinin formalaşması üçün mühüm əhəmiyyətə malikdir.
5. Ölkəmizin bütün təbii vilayətlərində yarımsəhra və quru çöl iqlim tipinə rast gəlinir.
6. Kür dağarası çökəkliyi təbii vilayətində hündürlüyü 500 m-dən çox olan relyef vahidlərinə rast gəlinir.

A) 3, 4, 5 B) 1, 4, 5 C) 4, 5, 6
D) 1, 2, 3 E) 2, 3, 6

**15. G-20 ölkələrinin 2022-ci ilin noyabr ayında toplantısının keçirildiyi ada:**

A) Haynan B) Sumatra C) Hönsü
D) Vankuver E) Bali

**16. Ölkəmizin iqlimi ilə bağlı olan doğru fikirləri müəyyən edin.**

1. Qış ayları üçün hakim hava kütlələri Arktik hava kütləridir.
2. Radiasiyanın illik miqdarının maksimal olduğu ərazidə temperatur da maksimum həddə olur.
3. Kəlbəcər şəhərində qışı quraq keçən soyuq iqlim tipi müşahidə edilir.
4. Bütün qonşu ölkələrlə sərhədimizdə yarımsəhra və quru çöl iqlim tipinə rast gəlinir.
5. Araz çayı sahilində soyuq iqlim tipinə rast gəlinir.
6. Qanıx və Qabırrı çaylarının mənsəblərində mülayim-isti iqlim tipi formalaşıb.

A) 1, 5, 6 B) 1, 3, 4 C) 2, 3, 4
D) 3, 4, 5 E) 1, 2, 6

**17. Aşağıdakı fikirlərdən hansılar doğrudur?**

1. Ölkəmizdə şəhərlərin sayı inzibati rayonların sayından daha azdır.
2. Balakən, Şəmkir və Qazax inzibati rayonlarında əhalinin orta sıxlığı Biləsuvar, Kürdəmir və Ağsu rayonlarının orta sıxlığından daha yüksəkdir.
3. Cənubi Amerikada 65 yaşdan yuxarı olan əhalinin xüsusi çəkisi Asiyadakı əhalinin xüsusi çəkisindən daha çoxdur.
4. Təbrizdə yaşayan azərbaycanlıların sayı Gəncədə yaşayan azərbaycanlıların sayından daha azdır.
5. Ölkəmizdə kənd əhalisinin xüsusi çəkisi şəhər əhalisinin xüsusi çəkisindən daha çoxdur.
6. Ukraynada əhalinin müəyyən hissəsi məcburi miqrasiyaya məruz qalmışdır.

A) 4, 5, 6 B) 1, 2, 5 C) 1, 2, 3
D) 3, 4, 6 E) 2, 3, 6

O.D. 25.12.2022

**18. Doğru fikirləri müəyyən edin.**

1. Kuk boğazı subduksiya zonasında yerləşir.
2. Sakit və Hind okeanlarında daxili dənizlər mövcud deyil.
3. Mərcan və Tasman dənizləri mülayim işıqlanma qurşağında yerləşir.
4. Okean cərəyanları istilik qurşaqlarının sərhədlərinin formalaşmasına təsir edir.
5. Şimal dənizi və Alyaska körfəzi sahillərində mülayim dəniz iqlim tipinə rast gəlinir.
6. Norveç, Baltik və Aralıq dənizləri üç yarımkürədə yerləşir.

A) 1, 4, 5 B) 4, 5, 6 C) 2, 4, 6
D) 1, 3, 6 E) 2, 3, 5

**19. Rəqəmlərə müvafiq gələn dağ silsilələrini müəyyən edin.**




A) 1-Qaraquzey, 2-Cəfəryaylaq, 3-Qaflan, 4-Qaraqaya
B) 1-Sudur, 2-Cəfəryaylaq, 3-Təngi, 4-Qovdağ
C) 1-Sudur, 2-Güney, 3-Təngi, 4-Qovdağ
D) 1-Qaraquzey, 2-Sarıdərə, 3-Xocayurd, 4-Niyaldağ
E) 1-Murğuz, 2-Qovdağ, 3- Cəfəryaylaq, 4- Xocayurd

O.D. 25.12.2022

**20. x paraleli üzərindəki A məntəqəsi 5-ci saat qurşağının şərq sərhədində, B məntəqəsi isə 10-cu saat qurşağının qərb sərhədində yerləşir. Bu parelelin 1°-lik qövsünün uzunluğu ilə Bakı şəhərinin yerləşdiyi paralelin 1°-lik qövsünün uzunluqları cəmi 141,2 km-ə bərabərdir. Buna əsasən, məntəqələr arasındakı ən qısa məsafənin, miqyası 1:72 000 000 olan xəritədə neçə santimetr olduğunu hesablayın.**

A) 9,8 sm  B) 17,25 sm  C) 5,25 sm
D) 16,85 sm  E) 4,65 sm

**21. Yer kürəsində 18 saat qurşağı mövcud olarsa, 40°-lik paralel üzrə Yerin öz oxu ətrafında orta fırlanma sürəti nə qədər olar?**

A) 1024 km/saat  B) 1134 km/saat
C) 928,3 km/saat  D) 1708 km/saat
E) 1537,2 km/saat

**22. Qrafikdə xəritə-sxemdə verilmiş şəhərlərdə basdırılmış eyni ölçülü şaquli cisimlərin günorta vaxtı üçün kölgələrinin uzunluqları verilmişdir. Buna əsasən, III rəqəmi ilə göstərilmiş kölgənin hansı şəhərə uyğun gəldiyini müəyyən edin.**







A) Şəki B) Balakən C) Zərdab
D) Şəmkir E) Ağsu

**23.** *Bu mərhələdə qeyri-neft sektorunun inkişafına diqqət artırıldı. Gəncə alüminium, Daşkəsən filizsaflaşdırma, Sumqayıt boru-prokat və sintetik kauçuk zavodu, Mingəçevir SES-i, Bakı məişət kondisionerləri və digər iri müəssisələr fəaliyyətə başladı.*
**Verilmiş fikirlər ölkəmizin iqtisadi inkişafının hansı mərhələsinə aiddir?**

A) I B) II C) III
D) IV E) V

O.D. 25.12.2022

**24. Böyük Qafqaz təbii vilayəti üçün doğru *olmayan* fikirləri müəyyən edin.**
1. Boz, boz-qonur, düzən meşə-çəmən torpaqlarına rast gəlinir.
2. Çaylarının əksəriyyəti öz mənbəyini Baş Suayırıcı silsilədən götürür.
3. Şimal-şərq hissədə hündürlüyə doğru landşaft inversiyası müşahidə olunur.
4. Şimal-qərb hissə əsasən, çökmə, cənub-şərq hissə isə möhkəm maqmatik və metamorfik süxurlardan təşkil olunmuşdur.
5. Respublikamızda mövcud olan bütün palçıq vulkanları bu təbii vilayətdə yerləşir.
6. Tərkibində olan fiziki-coğrafi rayonların sayına görə yalnız Kür çökəkliyi vilayətindən geri qalır.

A) 2, 3, 6 B) 3, 4, 5 C) 1, 3, 4
D) 1, 4, 5 E) 1, 2, 6

**25. Xəritə-sxemə əsasən, uyğunluğu müəyyən edin.**




A) 1-Qaraçay-Çərkəz, 2-Çuvaşiya, 3-Kabarda-Balkarıstan
B) 1-Çuvaşiya, 2-Başqordıstan, 3-Tatarıstan
C) 1-Kabarda-Balkarıstan, 2-Tatarıstan, 3-Başqordıstan
D) 1-Çuvaşiya, 2-Tatarıstan, 3-Başqordıstan
E) 1-Çuvaşiya, 2-Tatarıstan, 3-Xakasiya

O.D. 25.12.2022

O.D. 25.12.2022